RAST MÜZİKOLOJİ DERGİSİ
Uluslararası Müzikoloji Dergisi
www.rastmd.com

Doi:10.12975/rastmd.2016.04.03.00096

# TAXTA NƏFƏS ALƏTLƏRİ ÜÇÜN YAZILMIŞ AZƏRBAYCAN MİLLİ MUSİQİSİ İŞLƏMƏLƏRİNDƏ RƏNA QƏDİMOVA'NIN DƏSTİ XƏTTİ

**Nərgiz ƏLIYEVA**[1]

**ÖZET**

Məqalədə "TAXTA nəfəs alətləri üçün yazılmış Azərbaycan Milli Musiqisi işləmələrində Rəna Qədimovanın dısti xətti." haqqında danışılır. Burada Rəna Qədimovanın "Mayeyi-Rast" rənginin nəfəsli kvintet üçün işləməsi haqqında söhbət açılır. Bu məqalədə bəstəkarın özünəməxsus dəsti xətti, mövqeyi və muğamın klassik bəstəkarlıq məktəbinə təsiri barəsindədir. Bəstəkarların milli musiqiyə olan yanaşması, muğamın təsiri hər bir əsərdə araşdırılır və təhlil olunur.

**Anahtar Kelimeler**:Muğam,rəng,təsnif,dəsgah,bəstəkar,taxta nəfəs alətləri,milli musigi.

# НАПРАВЛЕНИЕ РЕНЫ КАДИМОВОЙ В СВОИХ ПЕРЕЛОЖЕНИЯХ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ МУЗЫКИ ДЛЯ ДЕРЕВЯННЫХ ДУХОВЫХ ИНСТРУМЕНТАХ

**Наргиз Алиева**

**РЕЗЮМЕ**

Статья посвящена некоторым вопросам использования Рены Кадимовой в своих сочинениях Азербайджанской народной музыки для деревянных духовых инструментов. Приведены переложения Рены Кадимовой для деревянно-духового квинтета "Майе Раст". В статье расматривается вопросы влияния мугама на классическую композиторскую школу ,на индивидуальность композитороров и на их восприятия мугама.Автор расматривает отношение композита к народной музыке , иследует и анализирует влияния мугама на произведения.

**Ключевые слова**: Мугам, ренг, тесниф, дастгях, композитор, деревянные духовые инструменты, национальная музыка

---

1 Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktarantı. fleytistka1991@mail.ru

# DIRECTION RENA KADIMOVOY IN THEIR ARRANGEMENTS OF THE AZERBAIJAN FOLK MUSIC FOR WOODWIND INSTRUMENTS


## ABSTRACT

The article is devoted to the use of certain Rena Kadimova in their works of Azerbaijan folk music for woodwind instruments. Presents the position of Rena Kadimovoy for wood-wind quintet "Maya Rast". Input a word in the article questions of influence on classical mugham school of composers, kompozitororov on individuality and on their perception of mugham. Author attitude are risen composer to folk music, isleduetsya and analyzes the impact of mugam on the work.


**Keywords:**Mugham, reng, tesnif, destgah, composer, wooden wind instruments, national music

## GİRİŞ

Muğam - Azərbaycan xalqının bədii yaradıcılığının zəngin bir hissəsi, əsrlərdən bəri şifahi şəkildə inkişaf edərək dövrümüzə gəlib çatmış unikal sənət nümunəsi, Şərq xalqlarının şifahi ənənəli professional musiqisi (ənənəvi musiqi) sistemində özünəməxsus janrdır. Muğam sənəti Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, Azərbaycan xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Bu mədəni ənənənin Azərbaycanda köklərinin olması ölkədə onun daşıyıcılarının sayı, eləcə də onun Azərbaycan bəstəkarlarının, rəssamlarının, heykəltəraşlarının və şairlərinin tükənməz ilham mənbəyi olan milli mədəniyyətdə mühüm rolu ilə təsdiqlənir. Bir sıra ümumi, bədii cizgiləri Azərbaycan muğamını İran dəstgahları, özbək-tacik şaşmakomları, uyğur mukamları, hind raqaları, ərəb nubaları, türk təqsimləri ilə qohumlaşdırır, bütün bunlar Şərq musiqisinin ümumi-bədii ənənələrini təşkil edirlər. Bununla yanaşı, muğam sənəti azərbaycanlılar tərəfindən milli özünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdən biri kimi qavranılır.

Həm milli mədəniyyət üçün, həm də bütün bəşəriyyətin mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyəri, onun yüksək mənalılığı 2003-cü ildə YUNESKO kimi nüfuzlu beynəlxalq təsisat tərəfindən etiraf olunmuşdur. YUNESKO muğamı “bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri” elan etmişdir.

Muğam daima Azərbaycan ifaçılarının, musiqişünaslarının diqqətini cəlb etmişdir. Azərbaycan musiqişünaslığında muğamlar xalq-professional musiqi janrına aid edilir. Buna səbəb onların məziyyətləri, muğam ifaçılığı sahəsindəki yüksək professionalizm ənənələri, forma və məzmunun tarixi qanunauyğunluğudur. Məhz bu keyfiyyətlər muğamı Avropa bəstəkarlq yaradıcılığının janrları ilə müqayisə etməyə imkan verib.

Muğam sənəti incəsənətimizin bir çox qollarıyla bağlıdır. O bədii təfəkkürün məhsulu olduğundan onda Azərbaycan incəsənəti üçün umumi olan mövzu rüşeymi vardır. Bu rüşeyimdən incəsənətin bütün sahələrində istifadə olmuşdur, o cümlədən bəstəkarların yaradıcılığında.

Muğam Azərbaycan renessans incəsənəti ideologiyasından irəli gələn bir sistem kimi formalaşmışdır. Belə bir deyim mövcuddur: “Muğam dilində bütün Şərq aləmi danışır”.[4] Bu

deyimdən də şahid oluruq ki, muğam Azərbaycan xalqının ayrılmaz bir hissəsidir. Elə bir bəstəkar olmaz ki, onun yaratdığı əsərlərdə muğam izləri, muğamın təzahürü hiss olunmasın. Muğam melodiyalarına öz əsərlərində böyük yer verən bətəkarlardan biri də Rəna Qədimovadır.

Qədimova Rəna Kamil qızı 1958-ci ildə Bakıda doğulub, 1976-cı ildə Bülbül adına Orta İxtisas Musiqi məktəbini pianoçu kimi bitirib, 1983 ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakultəsini Fərəc Qarayevin sinfində bitirib. Diplom işi İ.Kamenkoviçin mətninə solistlər və BSO (üçlüheyyət) üçün simfoniyası olub, simfoniya II Dünya müharibəsində alman faşistlərin ölüm düşərgəsində tələf olan uşaqlara həsr olunub (ifa olunmayıb).

Əsərləri: “Aşıqsayağı” az xalq havası olan “Qaraqafiə” adlı melodiyasından istifadə edib, skripka və fortepiano üçün 3 hissəli sonatina, 2 hissəli simli kvartet, faqot və fortepiano üçün “Dialoq”, müxtəlif şairlərin şeirlərinə bir sıra mahnı, 90-cı illərdə nəfəsli orkestr üçün 2 marş, 2007-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən keçirilən müsabiqədə “Vokaliz”, “Dirçəliş” uşaq xoru üçün iki mahnı III dərəcəli mükafata layiq görülüb, 2008-ci ildə "Pastoral", “Tokkata” – orijinal əsərlər, “Hüzzal”, “Maye-Rast” xalq rənglərinin işlənməsi, “Eskizlər” (3 pyes) fortepiano üçün. 2014-cü ildə Bəstəkarlar İttifaqının 80 illik yubiley konsertinin açılışında Ş.Süleymanovanın sözlərinə "Sarı gəlin" xor və simfonik orkestr üçün Balladası ifa olunub, 2015 ildə H.Cavidin sözlərinə bariton – kontratenor və fortepiano üçün “İNSAN” monoloqu. 1982 ildə I Zaqafqaziya nəfəsli alətlərin festivalında S.Fərəcovun Skripka, klarnet və fortepiano üçün triosunun ifasına görə pianoçu kimi fəxri diploma layiq görülüb, 1986 ildə “Üzü zirvəyə” beynəlxalq musiqi festivalında faqot və fortepiano üçün “Dialoq” əsəri səslənib.

Bəstəkar 2008-ci ildə taxta nəfəs alətləri kvinteti üçün “Mayeyi-Rast” rənginin işləməsini yazmışdır. Bu əsər ABİ və Mədəniyyət Turizm Nazirliyi tərəfindən keçirilən müsabiqədə Uşaq nəfəsli alətlər ansamblı üçün yazılmış əsərlər və işləmələr nominasiyasında II dərəcəli mükafata layiq görülüb. Kvintetə bu alətlər daxildir – fleyta, qaboy, klarnet, faqot, valtorna. Əsər məktəblilər üçün yazılmış, uşaqların ifa imkanları nəzərə alınaraq bəstələnmişdir.

Onu da qeyd etmək istərdim ki, *Rəng* şifahi profesional musiqinin instrumental janrıdır. O, musiqi etibarı ilə inkişaf etmiş bir formaya malikdir. Rənglər həcmcə müxtəlif olur – bir neçə frazadan ibarət miniatür pyeslərdən tutmuş, iri həcmli geniş miqyaslı intrumental pyeslərə qədər. Bu janr təsnif kimi əvvəl müstəqil şəkildə özünə təşəkkül tapmışdır, sonra isə muğamın tərkibinə daxil edilmişdir. Rənglər iri həcmli dəstgahın və ya kiçik həcmli muğamın müəyyən şöbəsindən sonra çalınır, mənsub olduğu şöbənin də adını daşıyır. Bizim təhlil edəcəyimiz “Mayeyi-Rast” rəngi Maye şöbəsindən sonra ifa edildiyi üçün həmin şöbənin adını daşıyır. Deməli, rənglər bilavasitə əsaslandığı müəyyən muğam dəstgahının və ya kiçik həcmli muğamın şöbələrindən sonra onun bütün melodik intonasiya lad, məqam xüsusiyyətlərini özündə cəmləşdirir. Rənglər ardıcıl gələn şöbələri bir-birinə bağlayır, onları üzvi surətdə əlaqələndirir, həmçinin şöbələr arasında təzad yaradır.

Kompazisiya *Andantino* tempində, *6/8* ölçüdə, şən xarakterdədir. Qeyd etmək istərdim ki, rənglər xarakter etibarı ilə üç qismə ayrılır :

1. Rəqsvari 2. Marş 3. Lirik

Mayeyi rast rəqsvari rənglərə aiddir və oynaq, şux xasiyyətə malikdir. Əsər Sol mayəli Rast ladındadır. Rast ladı *1t – 1t – ½ t* formulu üzrə qurulmuş, üç bərabər tetraxordun qovuşuq və ya zəncirvari birləşməsindən əmələ gəlir.

"Mayeyi-Rast" rənginin işləməsi öz obraz rəngarəngliyi, melodik, harmonik və ritmik ifadəliyi ilə seçilir. Bəstəkar muğam işlənməsini kiçik detallar vasitəsi ilə əldə edir, bu detalların əksəriyyəti harmonik və faktura dəyişiklikləridir. Əsər faktura cəhətdən təzadlıdır. Bəstəkar rəngin fakturasını dəyişərək, bəzən hətta adi unison şəklində səs əlavə edərək və ya əksinə-səslərin sayını azaldaraq ilk obrazı dəyişir, inkişafın yeni xasiyyət əldə etməsinə nail olur. Musiqidə punktivari ritm üstünlük təşkil edir. Qeyd etmək lazımdır ki, Rəna Qədimova bir neçə əsas prinsipdən istifadə edərək özünəməxsus böyük əsərlərdə olduğu kimi uşaqlar üçün yazdığı musiqidə də fərdi üslublu maraqlı əsər yaratmışdır.

Kompazisiya *period* formasında yazılmışdır və period bir neçə cümlədən ibarətdir. Əsərin formasına sxematik şəkildə nəzər salaq:

***a + b + c + d +a1***

Sxemdən də göründyü kimi "Mayeyi-Rast" rəngi beş cümlədən ibarət period formasında yazılmışdır. Bu cümlələrin hər biri digərini tamamlayır, sanki zəncirvari üsulla bir-birinə bağlanıblar. Periodun birinci cümləsi ***a*** - 10 xanədən ibarətdir. Musiqi materialı ilk olaraq faqot alətinin ifasında *mezzo forte (mf)* ilə başlayır (1-ci xanə), eyni melodiya, punktir ritm klarnetdə (2-ci xanə) də səslənir,həmin musiqi daha sonra fleyta alətinə ötrülür (3-cü xanə) və inkişaf etdirilir. Birinci cümlə iki ibarədən ibarətdir və *4 xanə + 6 xanə* şəklindədir. Birinci dörd xanəli ibarədə əsas intonasiya özeyi üçüncü xanədəki motivdə verilir, bir və ikinci xanələr musiqini bu motivə hazırlayır, sanki "giriş" rolunu oynayır və onu daha da zənginləşdirir. İkinci ibarə isə 6 xanədən ibarətdir, burada ilk 4 xanə birinci ibarə ilə eynilik təşkil edir, son iki xanə isə kadensiya xüsusiyyəti daşıyır və cümlənin sonunda səslənərək onu tamamlayır. Birinci cümlə faqot alətinin ifası ilə *mayədə* bitir.

İkinci cümlə ***b***- 11 xanəlidir, qaboy alətinin ifasında *mezzo piano (mp)* səslənmə ilə başlayır və digər alətlər isə müaşayətedici rolunda iştirak edir. Əsas mövzu inkişaf etdirilərək klarnetə keçir və cümlənin sonuna yaxın yenidən qaboy alətində eşidilir. Bu cümlə də öz daxilində bir neçə kiçik ibarələrdən ibarətdir. Bəstəkar melodiyanın səslənməsindən bəzəklərdən, melizmlərdən – *mordent, trel, vurğudan* istifadə etmişdir. İkinci cümlədə əsas mövzunun klarnet və qaboy alətində keçməsi də bəstəkar tərəfindən düşünülmüşdür. Çünki bu melizmlər qaboy və klarnet alətində daha gözəl, heyrətamiz səslənir. Cümlə qaboy alətinin ifasında *mayədə* (sol səsində) tamamlanır.

Üçüncü cümlə ***c***- 17 xanədən ibarətdir və genişlənmiş cümlədir. Cümlə daxilində bir neçə ibarə vardır. Əsas mövzu faqot alətinin ifasında *mezzo forte (mf)* səslənmə ilə verilir. Bu cümlədə əsas mövzu demək olar ki, bütün alətlərdə - fleyta, qaboy, klarnet, faqotda keçir (valtornadan başqa). Bəstəkar əsas mövzunun alətlərdə səslənməsinə diqqət yetirmişdir, hər bir alətin səslənməsində özünə xas olan melizmlərdən, bəzəklərdən istifadə etmişdir. Cümlə qaboy alətində *mayədə* (sol səsi) tammalanır.

Nümunə № 3




Dördüncü cümlə ***d*** – 9 cümlədən və cümlə tərkibində kiçik ibarələrədən ibarətdir. Əsas mövzu qaboy alətinin ifasında xanə xarici ilə başlayır. Bu cümlədə də bəstəkar əsas mövzunu demək olar ki, bütün alətlərin ifasında səsləndirərək vermişdir. Əsas mövzu qaboy və fleyta alətinin *mezzo piano (mp)* ifasında tam kadansla *mayədə* tamamlanır. ***a1***– cümləsi eyni ilə ***a*** cümləsinin qismən dəyişilmiş formada təkrarıdır və 12 xanədən ibarətdir. Kompazisiya fleyta, qaboy, klarnet alətlərinin ifasında *sforzando (sf)* ilə tam kadansla *mayedə* bitir. Rəngdə əvvəldən sona kimi xalq yaradıcılığı üçün səciyyəvi olan *6/8* ölçü saxlanılır. Bu ölçü daxilində müxtəlif ritmik qruplaşmalar, sinkopa və punktir ritmdə verilir. Cümlələrin hər birinin maye səsi ilə tamamlanması onların müstəqilliyinə və hər birinin tam bitmiş fikri ifadə etməsinə işarə edir ki, bu da onların variasiyalı inkişaf etdirilməsinə, yeni musiqi motivi üzərində cümlənin qurulmasına şərait yaradır.

## SONUÇ

Nəticədə onu qeyd etmək istərdim ki, Azərbaycan musiqisi qədim bir tarixə malikdir. Hər bir bəstəkarınmızın əsərində Azərbaycan musiqisi, ladı, məqamı, muğamı hiss olunur. Fərq etməz bu əsər müasir mövzuda, müasir üslubda və yaxud müasir yazı texnikası ilə yazılıb. "Taxta nəfəs alətləri üçün yazılmış Azərbaycan milli musiqisinin Rəna Qədimova tərəfindən işləmələrinə dair bəzi məsələlələr" adlı məqaləmizdə də nəfəs alətləri üçün bəzi işləmələrdən danışmış və onları təhlil etmişik. Müraciət etdiyimiz bəstəkar Azərbaycan milli musiqisi ilə sıx bağlıdı, onun yaradaıcılığında milli musiqi açıq aydın hiss olunur. Dünya qloballaşır, bu qloballaşan dünyada biz hər birimiz milli musiqiyə, milli ənənələrə bağlı olmalı, hər bir yeniliyi bu bağlılıqla etməliyik.

## KAYNAKLAR

1. Abdullazadə G. "Azərbaycan muğamlarının fəlsəfi mahiyyəti". Bakı, 1983
2. Azərbaycan xalq musiqisinin antologiyası. IV cild: Azərbaycan muğamları və rəngləri – Bakı: 2005.
3. Azərbaycan xalq musiqisinin antologiyası. VI cild: Azərbaycan təsnifləri, dəraməd, diringi və rəngləri, mugamlar və zərbi mugamlar. – Bakı: 2006.
4. Azərbaycan xalq musiqisi: oçerklər / müəlliflər: Ə. İsazadə, Ə. Eldarova, R. İsmayılzadə, N. Məmmədov, R. Zöhrabov, B.Hüseynli. – Bakı: Elm, 1981.
5. Hacibəyov Ü."Azərbaycan xalq musiqisinin əsasları" -Bakı 1950
6. Мазель Л Строение музыкальных произведений. – Музыка , 1979.